Bank of Baku olaraq, növbəti illərdə çevik və dayanıqlı inkişafa nail olmaq üçün beş əsas istiqaməti müəyyənləşdirmişik.

**İT yeniliklər və rəqəmsal transformasiyalar:**

Bu çərçivədə mövcud infrastrukturumuzu müasir, genişlənə bilən verilənlər bazası sistemləri ilə gücləndirməyi, kibertəhlükəsizlik protokollarını maksimum səviyyəyə çatdırmağı düşünürük. Eyni zamanda, mobil tətbiqimizin funksionallığını optimallaşdıraraq, ödəniş və kredit əməliyyatlarını daha sürətli və rahat etməyi düşünürük. Analitika və yeni texnologiyalar ilə riskin idarə edilməsi, müştəri seqmentasiyası və müştərilərə yönəlik təkliflərin hazırlanması proseslərini məlumatlara əsaslanan qərarvermə ilə zənginləşdirəcəyik.

**Bazar payının artırılması və müştəri mərkəzli böyümə:**

Pərakəndə bankçılıq sahəsində tam onlayn kreditlərin verilməsi və fərdiləşdirilmiş kart məhsulları ilə müştəri təcrübəsini daha cəlbedici etməyi planlayırıq Mikro və KOS seqmentində müştərilərimizin ehtiyaclarını daha yaxşı qarşılamaq üçün məhsul çeşidlərimizi genişləndirməyi və bu seqment üçün xüsusi olaraq biznes kart məhsulları hazırlamağı planlayırıq. Bankın mobil aplikasiya imkanları da bu təşəbbüsləri dəstəkləmək üçün genişləndiriləcək. Üstəlik, müştəri davranışı analizi sayəsində hər bir şəxsə uyğun xidmət paketləri təqdim etməklə mövcud müştəri bazamızı genişləndirməyi hədəfləyirik.

**Gəlirlərin diversifikasiyası və stabil yüksək gəlirli bankçılıq:**

Bank of Baku növbəti illərdə gəlir mənbələrini diversifikasiya etməyi və ənənəvi gəlir mənbələrindən asılılığını azaltmağı nəzərdən keçirir. Bankın əsas gəlir mənbəyi olan faiz gəlirləri tədricən balanslaşdırılaraq, komissiyalar, xəzinədarlıq və qiymətli kağızların gəlirlərinin artırılması prioritet təşkil edəcək.

Bankın arxa ofis əməliyyatlarında proseslərin avtomatlaşdırılması texnologiyalarnı tətbiq etməklə həm xərcləri optimallaşdıracaq, həm də əməliyyat sürətini və cavabdehlik səviyyəsini yüksəltməyi planlayırıq.

**Dayanıqlılıq və sosial məsuliyyət:**

Məsuliyyətli maliyyə qurumu olaraq Bank of Baku dayanıqlılığı və korporativ sosial məsuliyyəti davamlı olaraq aktiv şəkildə təşviq edir. Əməliyyatların ətraf mühitə təsirini azaltmaq üçün dekarbonizasiya təşəbbüslərini dəstəkləməyi və bankın fiziki infrastrukturunda enerji istifadəsini optimallaşdırmağı hədəfləyirik.

Əlavə olaraq bankımız daha yaşıl bir gələcəyə keçidi sürətləndirmək və ESİ (Ekoloji, Sosial, İdarəetmə) prinsiplərinin vacibliyini göstərmək üçün yerli icmalar və müxtəlif qurumlarla əməkdaşlıq etməyi planlayır.

**İnsan kapitalı strateji uğurların əsas təminatçısı kimi:**

Bank of Baku əməkdaşlarını uğurlarının əsas təminatçısı kimi görür və onları ən vacib dəyəri olaraq qiymətləndirir. Biz bilirik ki yüksək bacarıqlı, motivasiyalı və irəli düşüncəli əməkdaşlar uzun müddətli strateji hədəflərimizə çatmaq üçün ən vacib amildir. Gələn illərdə bankımız əməkdaşlarımızın həm texniki həm də liderlik bacarıqlarının inkişafını təmin etmək üçün uzunmüddətli yatırımlar etməyi planlaşdırır. Motivasiya və performans bu yanaşmanın əsas hissələrindən biridir. Əməkdaşlarımızın nailiyyətlərini mükafatlandırmaq üçün bacarıqlara və performansa əsaslanan motivasiya sistemini bankın bütün sahələrində tətbiq etməyi planlayırıq. Komanda ruhunu, yaradıcılığı və yenilikçiliyi təşviq edən açıqlıq mədəniyyəti isə bizim dəyərlərimizə daim sadiq qalmağımıza zəmin yaradacaq.

Bu strategiya ilə Bank of Baku komandası güclü texnoloji bazaya, müştəri yönümlü xidmət portfelinə və davamlı inkişafa əsaslanan fəaliyyət modelinə sahib olmağı qarşıya məqsəd qoyur. Etibarlılıq, şəffaflıq, yenilikçilik və cəmiyyətə dəyər prinsipləri əsasında həyata keçirəcəyimiz bu layihələr bankımızın rəqabət qabiliyyətini daha da artıracaq və müştəri məmnuniyyətini ən yüksək səviyyəyə qaldıracaq.

**"Bank of Baku" ASC-nin 2025 – 2027-ci illər üzrə Strateji baxışı:**

Bankçılığı müştərilərə daha da əlçatan, rəqəmsal, sosial məsuliyyətli, sürətli və rahat etmək, davamlı və dayanıqlı inkişafla bərabər, etibarlı idarəetməni əsas götürərək, cəmiyyətə öz töhfəmizi vermək.

**"Bank of Baku" ASC-nin 2025 – 2027-ci illər üzrə Missiya bəyanatı:**

Yenilikçi maliyyə həllərimiz, etibarlılığımız və sosial məsuliyyətimizlə bütün maraqlı tərəflər üçün dayanıqlı, davamlı və yüksək dəyər yaratmaq. "Sizə Yaxın Rəqəmsal Bankçılıq".

**Dəyərlərimiz:**

Etibarlılıq;

Daim müştərilərin yanındayıq və müştərilərimiz prioritetimizdir;

Dürüstlük;

Yeniliklərimizlə fərqlənirik və böyük düşünürük;

Cəmiyyətə dəyər qatırıq. Biz bir komandayıq.